# Milli mətbuatın 150 illik yubileyinə həsr olunmuş sərgi açılıb

**İyulun 22-də Milli Kitabxanada Azərbaycan milli mətbuatının yaranmasının 150 illik yubileyinə həsr olunmuş kitab sərgisi açılıb. Bu barədə AZƏRTAC-a kitabxanadan məlumat verilib.**



Bildirilib ki, tədbirdə çıxış edən Milli Kitabxananın Elmi işlər və kitabxana-informasiya xidməti üzrə direktor müavini Ədibə İsmayılova Azərbaycan mətbuatının keçdiyi tarixi yola nəzər salıb. Diqqətə çatdırıb ki, Milli Kitabxananın arxiv fondunun mühüm bir hissəsini dövri mətbuat nümunələri təşkil edir.

Digər natiqlər də çıxışlarında Həsən bəy Zərdabinin irsindən və müasir dövrdə medianın üzərinə düşən vəzifələrdən bəhs ediblər. Tədbirdə həmçinin "Milli Mətbuat Günü" adlı elektron məlumat bazasının təqdimatı keçirilib.

Elektron məlumat bazası "Rəsmi sənədlər", "Əkinçidən başlanan yol", "Ümummilli Lider Heydər Əliyev və milli mətbuat", "Milli mətbuatımızın banisi - Həsən bəy Zərdabi", "İlk milli mətbuat", "Qərbi Azərbaycanda ilk Azərbaycan mətbuatı", "Nəşrlər", "Yubiley medalı", "Fotoqalereya", "Videoqalereya" və s. bölmələrdən ibarətdir. Məlumat bazasında yerləşdirilən materiallar tammətnləri ilə təqdim olunub. Materialla linkindən istifadə edərək tanış olmaq mümkündür.

Sonda qonaqlar "22 İyul - Milli Mətbuat Günü" adlı kitab sərgisi ilə tanış olublar.

❖ ❖ ❖

Respublika Gənclər Kitabxanasından bildirilib ki, Milli Mətbuat Günü münasibətilə hazırlanan virtual sərgidə Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev tərəfindən ölkəmizdə söz və mətbuat azadlığının əsasının qoyulmasına, müasir dövrdə informasiya texnologiyalarının inkişafının Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirməsinə təkan verən rəsmi sənədlərin, Azərbaycan mətbuatının keçdiyi mürəkkəb, şərəfli inkişaf



yolundan və milli jurnalistikanın özəlliklərindən bəhs edən bir sıra kitabların tam mətni təqdim edilir.

Kitabxana əməkdaşları tərəfindən hazırlanan virtual sərgidə "Azərbaycan qəzeti I-X cild", "Azərbaycan mətbuat tarixi", "Cənubi Azərbaycan mətbuatı tarixi", "Molla Nəsrəddin jurnalı və Gəncə ədəbi mühiti", "Mətbuat tarixi və publisistika məsələləri" kimi 30-dan çox kitabın tam mətni yer alır. Kitabxanada təşkil edilən ənənəvi kitab sərgisində fondda mövcud olan və Azərbaycan mətbuatının tarixindən, inkişaf mərhələlərindən bəhs edən 60-dan çox kitab və "Milli oyanış və tərəqqimizin "Əkinçi"si: Azərbaycan milli mətbuatı - 150" adlı biblioqrafik icmal sərgilənir.

Milli Mətbuat Günü ilə əlaqədar hazırlanan material kitabxananın rəsmi saytında yerləşdirilib.

Azərbaycan.-2025.- 23 iyul (№ 150).- S.8.